

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 6 (23.168)

*10 yanvar 2019-cu il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Ötən ilin yekunları müzakirə olunub, qarşıda duran vəzifələr müəyyənləşdirilib



Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyində 2018-ci ilin yekunlarına həsr edilmiş kollegiya iclasında hesabat məruzəsi ilə çıxış edən agentliyin direktoru Bəxtiyar İsmayılov bildirib ki, muxtar respublikada istehsal olunan məhsul və xidmətlərin keyfiyyətini, təhlükəsizliyini, rəqabət qabiliyyətini daha da yüksəltmək üçün standartlaşdırma, metrologiya, uyğunluğun qiymətləndirilməsi, akkreditasiya və patent hüququ obyektlərinin mühafizəsi sahələrinin müasir tələblərə uyğunlaşdırılması qarşıya qoyulmuş əsas vəzifələrdəndir. Qeyd olunub ki, hesabat dövrü ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq fərman və sərəncamları ilə təsdiq edilmiş dövlət proqramlarının icrası xüsusilə diqqətdə saxlanılıb və ardıcıl tədbirlər həyata keçirilib.

Bildirilib ki, muxtar respublikada uşaq bağçalarının, məktəblərin, xəstəxanaların və digər təhsil və səhiyyə müəssisələrinin yerli məhsullarla təmin edilməsi və alınan qida məhsullarının keyfiyyətinin müntəzəm nəzarətdə saxlanılmasına diqqətin artırılması üzrə 102 məktəbin bufetində, 11 təhsil müəssisəsinin bufet və yeməkxanasında və 18 məktəbəqədər tərbiyə müəssisəsində monitorinqlər aparılıb, aşkar olunmuş nöqsanlar aradan qaldırılıb. Həmçinin məktəbli və tələbə geyim formaları istehsal edən 4 təsərrüfat subyektində istifadə olunan parçaların 5 halda keyfiyyət göstəriciləri yoxlanılıb və nəticələrin standartların tələblərinə uyğun olduğu müəyyən edilib.

Qeyd olunub ki, muxtar respublikada əhalinin hepatit virus infeksiyalarından qorunması işinə nəzarət üzrə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi ilə birgə 302 təsərrüfat subyektində 1271 işçinin tibbi müayinələri ilə bağlı monitorinqlər aparılıb.

Diqqətə çatdırılıb ki, istehsal olunan məhsulların ixrac olunacaq ölkələrə uyğun markalanması, beynəlxalq idarəetmə standartlarının tətbiqi, təsərrüfat subyektlərinə məxsus əmtəə nişanlarının məhsul ixrac olunacaq ölkələrdə Ümumdünya Əqli Mülkiyyət Təşkilatı vasitəsilə beynəlxalq mühafizəsi üçün tədbirlər görülüb.

Qeyd olunub ki, 2018-2019-cu illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrə əlaqədar verilmiş tapşırıqların icrasını təmin etmək məqsədilə aidiyyəti orqanların nümayəndələri ilə birlikdə elektrik və qaz cihazlarının satışını həyata keçirən 102 təsərrüfat subyektində müşahidə xarakterli monitorinqlər aparılıb. İdxal olunan 5372 ədəd məişət qaz cihazına baxış keçirilib, təhlükəsizliyi təmin olunmayan 440 ədəd məişət qaz cihazının idxalına və satışına icazə verilməyib.

İclasda vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 22 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı Tədbirlər Planı"nın icrası çərçivəsində Şahbuz şəhərində, Babək qəsəbəsində, Ordubad rayonunun Gilançay, Culfa rayonunun Kırna və Kəngərli rayonunun Yurdçu kəndlərində mədəni və yabanı dərman bitkilərinin mövsümə uyğun yığılması, qurudulması, onlardan bitki ekstraktlarının hazırlanması qaydaları ilə bağlı AMEA Naxçıvan Bölməsinin və İqtisadiyyat Nazirliyinin əməkdaşları ilə birlikdə ailə təsərrüfatları üçün seminarlar keçirilib, maarifləndirici bukletlər paylanılıb. Ailə təsərrüfatlarında istehsal olunan məhsulların markalanmasına köməklik göstərilməsi üçün 7926 rəngli etiket hazırlanıb və ailə təsərrüfatlarına çatdırılması təmin edilib. 2018-ci ildə keçirilən "Ailə təsərrüfatı məhsulları" festivalında keyfiyyətə nəzarət üçün aidiyyəti orqanla birlikdə 445 halda məhsullardan nümunələr götürülərək laboratoriyaya təqdim olunub, nəticələrin standartların tələblərinə uyğun olduğu müəyyən edilib.

Vurğulanıb ki, agentliyin əsas fəaliyyət istiqaməti kimi istehsal və idxal olunan məhsulların keyfiyyətinə nəzarət işi xüsusilə diqqətdə saxlanılıb, ötən il ərzində məhsulların 1532 halda, o cümlədən qida məhsullarının 1428 halda keyfiyyət göstəricilərinin yoxlanılması təmin edilib. Ümumilikdə, 2018-ci il ərzində istehlak bazarında məhsulların keyfiyyətinə və müvafiq standartlara uyğunluğuna nəzarətin davam etdirilməsi barədə verilmiş tapşırıqların icrası istiqamətində standartların tələblərinə uyğun olmayan 29811 manat dəyərində yararlılıq müddəti bitmiş, keyfiyyətsiz və ya kontrafakt məhsul satışdan çıxarılıb.

Sonra agentliyin müvafiq şöbələrinin hesabatları dinlənilib, qarşıya qoyulmuş vəzifələr müzakirə olunub.

Ordubad rayonunda 2018-ci ilin yekunlarına həsr edilmiş müşavirədə rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov geniş məruzə ilə çıxış edib. Qeyd olunub ki, 2018-ci ildə iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 55407,5 min manat vəsait yönəldilib. Tikinti-quraşdırma işlərinə qoyulan vəsaitin dəyəri 52727,8 min manat təşkil edib.

Hesabat dövründə Ordubad Dəmir Yol Vağzalının yeni binası və Naxçıvan Dəmir Yolları Məhdud Məsuliyyətli Cəmiyyətinin İnfrastruktur İdarəsinin, Ordubad Yol Sahəsinin inzibati binaları, Ordubad şəhərində Rabitə Evi istifadəyə verilib. Ordubad şəhərindəki 24 mənzilli yaşayış binası əsaslı təmir edilib, Dəstə kəndində kompleks quruculuq işləri başa çatdırılıb.

Rayon İcra Hakimiyyətinin və Ordubad şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyin inzibati binaları isə əsaslı şəkildə təmir olunur.

Rayon mərkəzində içməli su və kanalizasiya sistemlərinin, Ordubad Su Elektrik Stansiyasının tikintisi davam etdirilir. Ordubad-Culfa magistral avtomobil yolu əsaslı şəkildə yenidən qurulur.

Vurğulanıb ki, 2018-ci ilin yanvar-noyabr aylarında rayonda 8295,4 min manatlıq sənaye məhsulu istehsal olunub.

Ötən il kənd təsərrüfatında məhsuldarlığın artırılmasına ciddi önəm verilib, aqrar sahənin davamlı inkişafı təmin olunub. Rayonda 2018-ci ildə 1964 hektar dənli və dənli-paxlalı bitkilərin əkini sahəsindən 5679 ton məhsul yığılıb.

Diqqətə çatdırılıb ki, mal-qaranın cins tərkibinin yaxşılaşdırılması sahəsində müəyyən tədbirlər həyata keçirilib. Bəhs olunan dövrdə rayonda diri çəkidə 2546,7 ton ət, 5726,3 ton süd, 11892,1 min ədəd yumurta, 91,4 ton yun istehsal edilib.



Rayonda meliorasiya və irriqasiya sistemlərinin fəaliyyəti yaxşılaşdırılıb. Bunun ifadəsidir ki, rayon Suvarma Sistemləri İdarəsi tərəfindən 135,2 kilometr məsafədə kanal və arxlar lildən təmizlənib, 36,75 kilometr məsafədə içməli su xəttində təmir işləri aparılıb, 4,8 kilometr məsafədə yeni içməli su xətti çəkilib, 1490 metr kaptaj təmir edilib.

Qeyd olunub ki, yaşıllaşdırma tədbirləri yüksək səviyyədə təşkil edilib, ümumilikdə, 27 min 883 ting əkilib. 16 hektar sahədə yeni bağ salınıb, 8 hektar sahədə bərpa işləri aparılıb. Dəstə kəndi ərazisində 1 hektar sahədə 100 kiloqram badam və ərik dənələri əkilib.

Elektrik enerjisindən istifadə zamanı texniki itkinin normalara uyğun olaraq minimuma endirilməsi məqsədilə il ərzində 191 ədəd dayaq basdırılıb, 19 min 880 metr məsafədə yeni məftillər çəkilib və köhnə məftillər yeniləri ilə əvəz olunub.

Ordubad rayonunun bütün yaşayış məntəqələri fasiləsiz olaraq təbii qazla təmin edilir. Bunun ifadəsidir ki, ötən dövrdə 69 mənzil və 8 obyekt qazlaşdırılıb.

Qeyd olunub ki, rayonun təhsil, mədəniyyət, səhiyyə müəssisələri də ili uğurla başa vurublar.

Sonda məruzə ətrafında çıxışlar dinlənilib.

* * *



Şahbuz rayonunda keçirilən müşavirədə rayon İcra Hakimiyyətinin başçısı Rəfael Babayev bildirib ki, 2018-ci ildə rayonda quruculuq tədbirlərinin əhatə dairəsi genişləndirilib, Şahbuz Şəhər Təmizləyici Qurğular Sistemi istifadəyə verilib. Şahbuz şəhərində Mədəniyyət Evinin və aviakassanın inzibati binalarında tikinti və abadlıq işləri başa çatıb. Tikintisi davam edən çoxmərtəbəli ictimai yaşayış binasında xeyli işlər görülüb. Kükü, Kolanı, Aşağı Qışlaq, Sələsüz və Mahmudoba kəndlərində mərasim evlərinin tikintisi tamamlanıb. Yeni "Badamlı" mineral sular zavodunun tikintisində işlər davam etdirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin yaradılması haqqında" 2018-ci il 29 noyabr tarixli Sərəncamının icrası görülən işlərin davamlılığının təmin edilməsinə geniş imkanlar yaradıb. Belə ki, Ağbulaq kəndində dağ və xizək turizminin inkişafı üçün tədbirlər həyata keçirilib.

Vurğulanıb ki, həmin yaşayış məntəqəsində bütün evlərin dam örtükləri dəyişdirilib, fasadları yenilənib, yararsız tikililər sökülüb, həyətlərdə abadlıq işləri aparılıb, lazımi kommunal-məişət şəraiti yaradılıb.

Rayonda quruculuq tədbirlərinin geniş vüsət alması daha çox investisiya qoyuluşuna səbəb olub. Belə ki, 2018-ci ildə bütün maliyyə mənbələri hesabına əsas kapitala investisiya qoyuluşunun həcmi 27794,3 min manat təşkil edib. Tikinti-quraşdırma işlərinə sərf olunmuş investisiyaların həcmi 25441,1 min manat olub.

Qeyd edilib ki, ötən il 10570,7 min manatlıq sənaye məhsulu istehsal olunub.

İcra başçısı vurğulayıb ki, rayonda aqrar sahənin inkişafına da ciddi önəm verilir. Bunun ifadəsidir ki, ötən ilin məhsulu üçün 1615 hektar sahədə taxıl əkini həyata keçirilib. 2019-cu ilin məhsulu üçün isə 1411 hektar sahədə payızlıq səpin aparılıb.

Ümumilikdə, 2018-ci ilin ötən dövründə rayon üzrə 44509,8 min manatlıq kənd təsərrüfatı məhsulu istehsal edilib.

Bəhs olunan dövrdə imeciliklərdə 4,8 hektar sahədə 4862 meyvə, 1400 üzüm tingi əkilməklə yeni bağlar salınıb, 1,9 hektar sahəyə bərpa məqsədilə 1543 meyvə tingi, həmçinin Şahbuz-Batabat magistral avtomobil yolunun kənarlarına 365 həmişəyaşıl, 728 meşə ağaclarının tingi əkilib.

Qeyd olunub ki, rayon əhalisinin elektrik enerjisinə olan tələbatını yaxşılaşdırmaq məqsədilə müvafiq işlər görülüb, 2018-ci ildə 4763 abonentə xidmət göstərilib.

Bir sıra yaşayış məntəqələrində qaz xətləri yenidən işlənib, 4656 abonentə xidmət göstərilməklə 7 tikilmiş fərdi evə, 1 sosial obyektə yeni xətt çəkilib. Diqqətə çatdırılıb ki, rayonda digər sahələrdə də həyata keçirilən məqsədyönlü tədbirlər hesabına xeyli uğurlar qazanılıb. Qarşıda duran vəzifə 2019-cu ildə daha böyük müvəffəqiyyətlərə nail olmaqdır.

Sonra məruzə ətrafında çıxışlar olub.

*Sədərək rayonunda keçirilən müşavirədə rayon İcra Hakimiyyətinin başçısı Həbib İbrahimovun məruzəsi dinlənilib.*



Bildirib ki, 2018-ci il ərzində rayonda 320,6 min manat dəyərində abadlıq və təmir işləri aparılıb. İçməli su və kanalizasiya xəttinin çəkilişi və Heydərabad qəsəbəsində 48 mənzilli yaşayış binasının tikintisi davam etdirilir. Həmçinin ətraf mühitin mühafizəsi məqsədilə monitorinq laboratoriyasının yaradılmasına başlanılıb.

Vurğulanıb ki, ötən il rayonda 4443,5 min manatlıq sənaye məhsulu istehsal olunub.

2018-ci il 1 dekabr tarixə olan məlumata görə, 2503 hektar dənli və dənli-paxlalı bitkilərin əkini sahəsindən 8072 ton məhsul yığılıb. Ötən ilin payızında 2247 hektar sahədə əkin aparılıb. Yaz-payız əkinlərinə görə 673 torpaq mülkiyyətçisinə 523,133 ton güzəştli şərtlərlə gübrə paylanılıb.

Qeyd olunub ki, rayonda 2926 baş iribuynuzlu mal-qara, 16734 baş xırdabuynuzlu heyvan, 18147 baş quş və 667 arı ailəsi vardır.

İqtisadi cəhətdən yüksək gəlir gətirən, qida və müalicəvi baxımdan faydalı xüsusiyyətlərə malik təsərrüfat sahəsi kimi arıçılığın da inkişafı diqqət mərkəzində saxlanılıb.

Diqqətə çatdırılıb ki, hesabat dövrü ərzində rayonda 113 subartezian quyusu təmir olunub. Yaz və payız aylarında keçirilən yaşıllaşdırma tədbirləri çərçivəsində 5,5 hektar sahədə meşəsalma və 8 hektar sahədə bərpa işləri aparılıb.

Həbib İbrahimov deyib ki, ötən il rayonda 8 yeni telefon çəkilişi olub və internet istifadəçilərinin sayı 410 nəfəri keçib.

2018-ci ildə 15 transformator yenisi ilə əvəz olunub, istismar müddəti başa çatmış 95 sayğac yenisi ilə əvəz edilib, 2100 metr müxtəlifölçülü elektrik verilişi xətləri quraşdırılıb, 18 elektrik dirəyi yeniləri ilə əvəz edilib. Rayonda ötən il ərzində 24 nasaz qaz sayğacının istismar müddəti bitdiyi üçün yenisi ilə əvəz edilib, 20 yaşayış evinə qaz xətti çəkilib.

Qeyd edilib ki, ötən il vergi və digər icbari ödəmələr planı 183 min manat, büdcəyə daxilolmalar isə 201,3 min manat təşkil edib. Bu da proqnoz tapşırığa 110 faiz əməl olunması deməkdir.

Məruzədə hüquq-mühafizə, təhsil, səhiyyə, sosial təminat, nağdsız hesablaşmalar, sığorta, daşınmaz əmlak və torpaq məsələləri, məşğulluq, gənclər və idman, mədəniyyət, məktəbəqədər və məktəbdənkənar müəssisələrin fəaliyyəti, mədəni-kütləvi tədbirlərin keçirilməsi sahələrində ötən il görülən işlərdən də danışılıb.

Müşavirə məruzə ətrafında müzakirələrlə başa çatıb.

**Xəbərlər şöbəsi**

Ordun varsa, yurdun var

# Böyük Qələbəyə gedən yolun yolçuları yaradılan şəraitdən razılıq edirlər

## Yeni istifadəyə verilmiş əsgəri-məişət komplekslərindən reportaj

*Ordumuzun muxtar respublikadakı hərbi hissələrinin bir çoxunda olmuşam. Belə ünvanlarda yaradılan şəraiti görəndə istər-istəməz dönüb geriyə baxır, ötən əsrin səksəninci illərinin sonunda başlayan məlum hadisələrdən sonra hərbi hissələri bürümüş özbaşınalığın, xaosun gətirdiyi problemləri xatırlayıram. Yaxşı ki o dövrün ömrü uzun olmadı. Ulu öndər Heydər Əliyev həmin problemlərin qarşısını məharətlə ala bildi. Nizami ordu formalaşdırılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirdi. Görkəmli dövlət xadiminin müəyyənləşdirdiyi siyasətin uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün ordumuzun döyüş qabiliyyəti xeyli artıb. Qürur duyuruq ki, ordumuz Cənubi Qafqazda ən güclü ordudur və verilən ən çətin tapşırığı belə, yerinə yetirməyə hazır və qadirdir.*

Dahi rəhbərin əsasını qoyduğu ordu quruculuğunun bəhrələrini qədim diyarımız Naxçıvanda bütün çalarları ilə görmək mümkündür. Bu, xüsusi qeyd olunmalıdır ki, diyarımızda hərbi hissələr hərtərəfli dövlət qayğısı əhatəsindədir. Hər il istifadəyə verilən yeni əsgəri-məişət kompleksləri, onların müasir silah və sursatla, keyfiyyətli və yüksək kalorili ərzaq məhsulları ilə təchizatına ciddi önəm verilir. Bu istiqamətdə həyata keçirilən tədbirlər isə xidməti borcunu yerinə yetirən hərbçilərimizdə yüksək döyüş əzmi yaradıb.

Ötən ilin son günündə – Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı ərəfəsində Babək rayonunun Gərməçataq kəndindəki hərbi hissə üçün yeni əsgəri-məişət kompleksinin açılışında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Bu gün ölkəmizdə ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər ordumuzu güclü ordular sırasına çıxarmışdır. O ordu güclüdür ki, onun müasir silahları, texnikaları var, əsgəri-məişət kompleksləri müasir tələblər səviyyəsindədir və şəxsi heyətinin yüksək döyüş ruhu vardır. Bunları Azərbaycan Ordusunun, eyni zamanda Azərbaycan Silahlı Qüvvələrinin muxtar respublika ərazisində yerləşən ordu, birləşmə, hissə və bölmələrinin timsalında görmək mümkündür. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin muxtar respublikada yerləşən ordu, birləşmə və hissələri həm müasir silah və sursata, həm də peşəkar və yüksək döyüş ruhu olan şəxsi heyətə malikdir".***

Həmin gün həm də Buzqov kəndində açılışı olan əsgəri-məişət kompleksi hər iki hərbi hissədə qulluq edən zabitlərdə və Vətənə borcunu yerinə yetirən əsgərlərdə əsl bayram sevinci yaşadıb. Bu günlərdə biz də həmin hissələrdə olduq, əsgər və zabitlərlə görüşdük, yaradılmış şəraitin onlarda yüksək ovqat bəxş etdiyini gördük.

Gərməçataq kəndindəki hərbi hissə üçün inşa olunan ikimərtəbəli əsgəri-məişət kompleksində əsgər və zabit yataqxanaları, tibb məntəqəsi, növbətçi otağı, ideoloji sinif, zabitlər üçün iş otaqları, silah və digər xidməti otaqlar, mətbəx, yeməkxana, əşya və ərzaq anbarları, əsgərlər üçün ləvazimatların satışı mağazası, hamam-camaşırxana və qazanxana yerləşir. Hərbi hissənin həyətində sıra meydanı və idman şəhərciyi salınıb, texnika



saxlancı inşa olunub. Şəxsi heyətin asudə vaxtının səmərəli təşkilini təmin etmək üçün istirahət guşəsi yaradılıb. Belə şərait hissə qarşısında qoyulmuş vəzifələri layiqincə yerinə yetirməyə imkan verib.

Bunu həmsöhbət olduğumuz zabit və əsgərlər də təsdiq edirlər. Zabit Pərviz Mövsümzadə deyir ki, muxtar respublikamızda ən çətin dağlıq şəraitdə belə, hərbi xidmət nümunəvi təşkil olunur, şəxsi heyətin xidmət və məişət şəraiti yaxşılaşdırılır. Yaxşı şərait isə yaxşı xidmətə yol açır. Bunu ötən il bir daha gördük. Belə ki, Əlahiddə Ümumqoşun Ordu tərəfindən Günnüt kəndi və ətraf ərazilərin nəzarət altına alınması göstərdi ki, əsgər və zabitlərimiz qarşıya qoyulan istənilən tapşırığı yerinə yetirmək əzmindədir. Bütün bunlar həm də dövlət-xalq-ordu birliyinin bəhrəsidir. Ordumuzun gücünün artmasında birlik və həmrəylik başlıca şərtdir. Hərbi hissələrdə yeni xidmət və yaşayış binalarının istifadəyə verilməsi, əsgər və zabitlərlə görüşlərin keçirilməsi də mühüm əhəmiyyətə malikdir. Bizim hissəyə də belə qayğıdan pay düşüb. Bu, əsgər və zabitlərin böyük sevincinə səbəb olub. Belə qayğıya görə şəxsi heyət adından dövlətimizə minnətdarlığımızı bildirir, söz veririk ki, bundan sonra da xidmətimizi layiqincə yerinə yetirəcəyik.

Göyçay rayonunun Alapout kəndindən gəlmiş Sübhan İslamov:

– Hissəmiz üçün tikilən əsgəri-məişət kompleksində hər şey yüksək səviyyədədir. Burada hərbi biliyimizi, fiziki hazırlığımızı artırmaq üçün əlverişli şərait yaradılıb. Biz əsgərlər bu şəraitdən səmərəli istifadə edir, fiziki cəhətdən güclü olmağa çalışıruq. Çünki əsgərin döyüş meydanında qalib gəlməsində fiziki gücünün də yetərli olması başlıca şərtlərdən biridir. Ona görə də hissəmizdə əsgərlərin sağlamlığı qeydinə qalınır, fiziki hazırlıq məşğələlərinin keçirilməsinə ciddi önəm verilir.

Tovuz rayonunun Xatınlı kəndindən olan əsgər Samir Qurbanov da söhbətə qoşulur:

– İctimai-siyasi, döyüş və atəş hazırlıqları sayəsində döyüş vərdişlərimizi təkmilləşdirir, fiziki cəhətdən daha güclü, dözümlü, iradəli, sağlam olmağa çalışırıq. Döyüş əmri ilə erməni qəsbkarlarından qisasımızı almağa hər an hazırıq. Bu gün mənim kimi hər bir azərbaycanlı əsgər bunu səbirsizliklə gözləyir. Yeni əsgəri-məişət kompleksində gördüyünüz şərait bizi böyük qələbəyə aparmaq üçündür. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov da açılış mərasimində bizə öz tövsiyələrini verdi. Ali Məclis Sədrinə bizə belə şərait yaratdığına görə minnətdarlığımızı bildirməklə demək istəyirəm ki, onun tövsiyələri bizi daha yaxşı xidmət etməyə ruhlandırıb.

Mingəçevir şəhərindən olan əsgər Hikmət Məmmədov, Şəkinin Kiş kəndindən Bəhrəm Qeybullayev, naxçıvanlı Heydər Həsənov və başqaları söhbətə qoşularaq əsgərlərin asudə vaxtlarının səmərəli keçirmələri üçün yaradılan şəraitdən razılıqla danışdılar. Bildirdilər ki, əsgər yataqxanasında təşkil olunmuş bərbərxana, onların istifadələrinə verilmiş məişət avadanlıqları, kompleksdə fəaliyyət göstərən tibb məntəqəsi hər bir əsgərə böyük dövlət qayğısının ifadəsidir.

Əsgər və zabitlərlə görüşüb onlardan ayrılır, Buzqov kəndində istifadəyə verilmiş əsgəri-məişət kompleksinə üz tuturuq.

Yeni salınmış asfalt yol bir qədər keçmiş bizi Aşağı Buzqov kəndinə çatdırır. Məlumat üçün qeyd edək ki, bu yaşayış məntəqəsində kompleks quruculuq tədbirləri çərçivəsində inşa edilmiş məktəb binası, kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası ötən ilin oktyabr ayında istifadəyə verilib, kənddaxili yollar abadlaşdırılıb...

Bu da yeni əsgəri-məişət kompleksi. Muxtar respublikamızda təmin olunmuş sabitliyin, sosial-iqtisadi inkişafın daha bir ifadəsi. Hərbi xidmətini bu hissədə yerinə yetirən eloğullarımıza qayğının yeni təzahürü...

Əslən Laçın rayonunun Hoçaz kəndindən olan Habil Mehrəliyev 6 aydır ki, ordu sıralarındadır. Deyir ki, valideynlərimdən, böyüklərimizdən bölgəmizdə gedən müharibə haqqında çox eşitmişəm. O vaxt eloğullarımız döyüşə könüllü gedirlər. Amma nizami ordu, peşəkar kadrlar olmadığı üçün itkilərimiz çox olub. Torpaqlarımızın bir hissəsi işğal edilib. İndi mən nizami bir ordunun əsgəriyəm və bununla fəxr edirəm. Xidmət etdiyim hissədə hərtərəfli təminatımız, müasir silah və texnikalarımız var. Bu gün düşmən yaxşı bilir ki, onun qarşısında güclü Azərbaycan Ordusu dayanıb. Onun gücü və qüdrəti gündən-günə artır. Çünki hərtərəfli dövlət qayğısı ilə əhatə olunub. Düşmən bunu da yaxşı bilir və dərindən dərk edir ki, ordu-



muz Ali Baş Komandanımızın əmri ilə tarixi torpaqlarımızı azad etməyə tam hazırdır və o gün uzaqda deyil. Çox arzu edərdim ki, torpaqlarımızın düşmən tapdağından azad olunmasında mən də iştirak edim.

Ondan xidmət etdiyi hissədə yaradılmış şərait barədə soruşuram. Gülümsəyərək cavab verir: – Özünüz buradakı şəraiti görürsünüz. Bu şərait bizi yaxşı xidmət göstərməyə sövq edib.

Bakı şəhərindən gəlmiş İbrahim Mustafayevin də deməyə sözü çoxdur. O, burada yaradılmış mənəvi-psixoloji iqlimin əsgərlərin öz xidməti vəzifələrini layiqincə yerinə yetirmələrində başlıca şərtlərdən biri olduğunu vurğulayır. Belə hərbi hissədə xidmət etməkdən qürur duyduğunu dilə gətirir: – Naxçıvanda xidmət edəcəyimi eşidəndə xeyli sevindim. Çünki bu diyarda hərbçilər üçün yaradılmış şərait barədə qohum-qonşularımdan çox eşitmişdim. Qəzetiniz vasitəsilə valideynlərimə bildirmək istəyirəm ki, məndən qəti narahat olmasınlar. Burada özümü evimizdəki kimi hiss edirəm. Hissəyə tez-tez valideynlər gəlir. Onlar ölkəmizin digər bölgələrindən gəlib burada xidmət edən əsgərlərə öz övladları kimi baxırlar. Bayramlarda əsgər yoldaşlarımız bizi öz evlərinə aparırlar. Mən əsgər yoldaşlarım adından bizim qayğımıza qalan, yaxşı hərbi xidmət keçməyimiz üçün yüksək şərait yaradılmış belə əsgəri-məişət kompleksini istifadəmizə verən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığımı bildirirəm.

... Əsgər və zabitlərlə söhbətlərdən gəldiyimiz qənaət belə oldu ki, ordumuzun muxtar respublikadakı hissələrinə göstərilən qayğı yüksək səviyyədədir. Belə qayğı hərbçilərimizi işğal olunmuş torpaqlarımızın tezliklə azad olunmasına ruhlandıran başlıca amildir. Onlar bu taleyüklü məsələnin həllinə hazırdırlar.

Artıq hərbi hissədən ayrılmağın vaxtı çatıb. Buradan aldığımız yüksək təəssüratlarla əsgər və zabitlərlə sağollaşıb yola düşür, hələ Gərməçataqda olarkən Şərur rayonunun Alışar kəndindən burada hərbi xidmət keçən övladını görməyə gəlmiş Rafiq Əliyevin söhbətini bir daha xatırlayıram:

– İllər öncə öz övladını hərbi xidmətə göndərməyə tərəddüd edən valideynləri yaxşı xatırlayıram. Öz qohum-əqrəbamızda da belə valideynlər var idi və onların tərəddüdlərini başa düşmək də çətin deyildi. Əsgərlərin xidməti üçün minimum şəraitin olmaması, orduda peşəkarlığın çatmaması, digər amillərin valideynləri narahat etməsi kimi hallar baş alıb gedirdi. Şükürlər olsun ki, o günlər artıq acı xatirələrə dönüb. Bu gün ordumuzda yaradılan şərait çox yüksək səviyyədədir. Atalar sözüdür: "Görünən dağa bələdçi lazım deyil". Elə götürək bu hissəni. Əsgər üçün burada nələr yoxdur? Televizor var, kitabxana, bərbərxana var. Səhiyyə məntəqəsi lazım olan dərmanlarla təchiz edilib. Suyu, istiliyi, işığı da öz yerində. Qalır ki, burada xidmət edən əsgər ona yaradılan belə şəraitin qədrini bilməklə özünü Böyük Qələbəyə hazırlaya bilsin. İdeoloji kabinədə keçirilən məşğələlər, əsgərlərin siyasi hazırlığı belə deməyə əsas verir ki, hərbçilər qələbəyə hazırdırlar, onlarda yüksək döyüş əzmi formalaşdırılıb.

**Muxtar MƏMMƏDOV**

---

# Buraxılış mərasimi keçirilib



*Əlahiddə Ümumqoşun Orduda növbəti zabit hazırlığı kursunu bitirən məzunların buraxılış mərasimi keçirilib.*

Əvvəlcə buraxılış mərasiminə hazırlıqla bağlı məruzə edilib. Döyüş bayrağı sıra meydanına gətirildikdən sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə Əlahiddə Ümumqoşun Ordu komandanı, general-leytenant Kərəm Mustafayev çıxış edərək bildirib ki, ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu ordu quruculuğu siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir və bu məqsədyönlü iş muxtar respublikada da qətiyyətlə aparılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı ilə ordu, birləşmə və hissələr böyük təşkilatlanma yolu keçərək hər gün daha da güclənir. Aparılmış məqsədyönlü tədbirlərin nəticəsidir ki, 2018-ci tədris ilini uğurla başa vuran Naxçıvan Qarnizonu qoşunlarında ixtisas hazırlığı kurslarında iştirak edərək peşəkar hərbçi kimi yetişmək istəyən gənclərin sayı daha da artmaqdadır. Tarixə qızıl hərflərlə yazılan "Günnüt əməliyyatı"nın uğurla nəticələnməsi kurslarda peşəkar döyüşçü kimi yetişən hərbçilərimizin sayəsində mümkün olub. İnanırıq ki, hər bir məzun kursda qazandığı biliklər nəticəsində peşəkar, vətənpərvər əsgərlərin yetişdirilməsi üçün əlindən gələni əsirgəməyəcək.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov deyib ki, Əlahiddə Ümumqoşun Orduda səkkizinci zabit hazırlığı kursunu bitirən məzunlardan 21 nəfəri ümumtəhsil məktəblərində gənclərin çağırışaqədərki hazırlığı fənnini tədris edəcək. Bu gün məzun olan hərbi rəhbərlər şagirdlərdə hərb sənətinə maraq yaratmalı, gəncləri hərbi xidmətə yüksək səviyyədə hazırlamalıdırlar. Belə ki, hərbi rəhbərlərin gənclərin çağırışaqədərki hazırlığı fənnini peşəkar səviyyədə tədris etmələri üçün Naxçıvan Muxtar Respublikasında hərtərəfli şərait yaradılıb. Həmin fənni tədris edən hərbi rəhbərlərin peşəkarlıqlarının artırılması məqsədilə Əlahiddə Ümumqoşun Orduda ildə iki dəfə olmaqla təlim toplantıları keçirilir.

Məzun Hüseyn Bağırov peşəkarlıqlarının artırılmasına xidmət edən zabit hazırlığı kursunun muxtar respublikamızda təşkil edilməsinin hərb işinə verilən yüksək dəyər olduğunu vurğulayaraq dövlətimizə minnətdarlığını bildirib.

Əlahiddə Ümumqoşun Ordu komandanının birinci müavini-qərargah rəisi, general-mayor Fazil Ağalarov məzunların ilkin leytenant hərbi rütbəsi verilməklə ixtisaslarına uyğun vəzifələrə təyin olunmaları haqqında müdafiə nazirinin əmrini çatdırıb.

Əmr oxunduqdan sonra kursu daha yüksək qiymətlərlə 1-ci, 2-ci və 3-cü yerdə başa vuran məzunlara sertifikat və qiymətli hədiyyələr, bütün məzunlara isə sertifikatlar təqdim edilərək xidmətlərində uğurlar arzulanıb.

Kurs birincisi Abbas Səfərov xatirə lövhəsinə buraxılış emblemini vurub. Məzunlar döyüş bayrağı qarşısında and içdikdən sonra tribuna önündən təntənəli keçid olub.

Sonda məzunlarla xatirə şəkli çəkdirilib.

**Nəriman NƏCƏFOV**

## AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin yığıncağı olub



*AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin bölmənin 2018-2019-cu tədris ili üçün fəlsəfə və elmlər doktorluğu hazırlığı üzrə doktorantura və dissertanturaya qəbulunun nəticələrinə həsr olunmuş yığıncağı keçirilib.*

Tədbirdə bölmənin sədri, akademik İsmayıl Hacıyev elmi-tədqiqat işlərinin səmərəli aparılması üçün göstərilən diqqət və qayğıdan danışıb. O, dissertasiya mövzuları seçilərkən müasir elmin qarşısında duran əsas tələb və vəzifələri nəzərə almağın, mühüm sosial-iqtisadi və mədəni-mənəvi əhəmiyyət kəsb edən mövzulara üstünlük verməyin və digər bu kimi məsələləri diqqətdə saxlamağın vacibliyini vurğulayıb.

Sonra bölmənin Təhsil və kadrlar şöbəsinin baş mütəxəssisi Leyla Səfərova 2018-2019-cu tədris ili üçün fəlsəfə və elmlər doktoru hazırlığı üzrə doktoranturaya və dissertanturaya qəbulun nəticələri ilə bağlı məlumat verib. Bildirib ki, bölmə üzrə cari ildə 3 nəfər elmlər doktoru hazırlığı üzrə doktoranturaya, 2 nəfər elmlər doktoru hazırlığı üzrə dissertanturaya, 14 nəfər isə fəlsəfə doktoru hazırlığı üzrə dissertanturaya müraciət edib.

Müzakirələrdən sonra təqdim olunan 19 dissertasiya mövzusu Rəyasət Heyətinin qərarı ilə təsdiq edilib.

**AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi**

## Müsabiqənin test imtahanları mərhələsi başlayıb



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən dövlət orqanlarında vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün 5 noyabr 2018-ci il tarixdə elan olunmuş müsabiqənin test imtahanları mərhələsinə 2019-cu il yanvar ayının 7-dən start verilib. Müsabiqəyə çıxarılan 305 vakant vəzifənin tutulması üçün 583 namizəd sənəd təqdim edib ki, bu da son illərdə qeydə alınmış ən yüksək göstəricidir. Sənəd təqdim edənlərdən 344 nəfəri kişi, 239 nəfəri isə qadındır, həmin şəxslərin 81,6 faizini gənclər təşkil edir. Namizədlərin daha çox sənəd təqdim etdiyi dövlət orqanları sırasında Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (76 nəfər), Turizm Departamenti ( 69 nəfər), Mədəniyyət Nazirliyi (58 nəfər), Dövlət Statistika Komitəsi (57 nəfər), Təhsil Nazirliyi (53 nəfər) və Dövlət Sosial Müdafiə Fondu (46 nəfər) üstünlük təşkil edir.

Test imtahanlarında müvafiq keçid balını toplamış şəxslər müsahibə mərhələsində iştirak etmək hüququ qazanacaqdır. İmtahan başlanmazdan əvvəl namizədlərə slayd vasitəsilə imtahan və test proqramından istifadə qaydaları haqqında məlumat verilir. İmtahanda namizədlərə qanunvericilik üzrə 40, dünyagörüşü üzrə 15, informasiya texnologiyaları üzrə 15, məntiqi təfəkkürün yoxlanılması üzrə 30 sual olmaqla, 100 sual təqdim edilir. Sualları cavablandırmaq üçün namizədlərə 2 saat 30 dəqiqə vaxt verilir. Obyektivliyin və şəffaflığın tam təmin edilməsi məqsədilə imtahanın videoçəkilişi aparılır. Test imtahanı bitdikdən dərhal sonra namizədlərə test imtahanının nəticəsinə dair arayış təqdim edilir. İmtahanların nəticələri komissiyanın rəsmi internet portalında *(www.dqmk.nmr.az)* yerləşdirilir.

Test imtahanları 21 yanvar 2019-cu il tarixədək davam edəcəkdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti**

## *“Beş manatlıq gəlin”* əsəri xalq teatrında səhnəyə qoyulub



*Dünən Babək Rayon Mədəniyyət Sarayında görkəmli yazıçı-dramaturq Məmməd Səid Ordubadinin “Beş manatlıq gəlin” komediyası əsasında Rayon Xalq Teatrının hazırladığı tamaşa rayon sakinlərinə təqdim olunub.*

Komediyada hadisələr məişət mövzusuna həsr olunub. Gözlənilməz gülüşdoğuran vəziyyətlər, komik dialoqlarla zəngin komediya tamaşaçıda xoş ovqat yaradır. Səhnə əsərindəki keçmişin qalıqları, köhnə düşüncələrlə yaşayan mənfi obrazlar sağlam gülüş yaratmaqla tamaşaçını düşündürür.

Tamaşanın quruluşçu rejissoru Yusif Əliyev, rejissoru Azərbaycan Respublikasının Əməkdar artisti Vidadi Rəcəbli, musiqi tərtibatçısı isə Cabir Məmmədovdur.

Xalq teatrının aktyorları – Azərbaycan Respublikasının Əməkdar artisti Vidadi Rəcəbli (Kəbleyi Hüseynli), Stella Babayeva (Səlbi), İsmayıl Qurbanov (Mirzə), Nuray Mehdiyeva (Naznaz), Rasim Qasımov (Qiyas), Ələkbər İsmayılov (Nadir), Yusif Əliyev (Mövsüm) komik surətləri təbii və canlı təqdim edirlər. Xalq teatrının bu aktyorları yaşlı və gənc nəslin nümayəndələri olan personajları özünəməxsus xarakterik cizgilərlə yarada biliblər. Tamaşa Babək rayon ictimaiyyəti tərəfindən maraqla qarşılanıb.

Tamaşadan sonra Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova və Babək Rayon İcra Hakimiyyətinin başçısı Rasim Hüseynov kollektivi təbrik edərək onlara uğurlar arzulayıblar.

Qeyd edək ki, Babək Rayon Xalq Teatrı muxtar respublikanın fəallığı ilə seçilən teatr kollektivlərindəndir. Bu il xalq teatrının yaradılmasının 10 illiyi tamam olur. Ötən illər ərzində xalq teatrı həm dramatik, həm də komik mövzusu ilə səciyyələnən bir çox əsərləri bacarıqla səhnəyə qoyub. Teatr bir sıra tamaşalarını muxtar respublikanın digər rayonlarında da göstərib.

**Əli RZAYEV**

## Boks Federasiyasında 2018-ci ilin yekunları müzakirə edilib



Dünən Naxçıvan Muxtar Respublikası Boks Federasiyasının 2018-ci il dekabrın 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində “Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr haqqında” keçirilən müşavirə ilə bağlı yığıncağı olub.

Yığıncağı giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov gündəlikdə duran məsələlərlə bağlı məlumat verib.

Naxçıvan Muxtar Respublikası Boks Federasiyasının sədr müavini Məmmədcəfər Əliyev çıxış edərək bildirib ki, muxtar respublika rəhbərinin diqqət və qayğısı nəticəsində bütün sahələrdə olduğu kimi, bədən tərbiyəsi və idman da inkişaf etməkdədir. Naxçıvanda Olimpiya-İdman kompleksləri, Üzgüçülük, Şahmat və Atıcılıq mərkəzləri, bir çox idman zalları, obyektləri tikilərək və ya əsaslı təmir olunaraq yeniyetmə və gənclərin ixtiyarına verilib. Beynəlxalq yarışların muxtar respublikada keçirilməsi, idmançılara və məşqçilərə müxtəlif mükafat və adların verilməsi Naxçıvanda idmana və idmançılara göstərilən diqqətin bariz nümunəsidir. Bu siyahıda Boks Federasiyasının məşqçi-müəllimlərinin və idmançıların da adlarının olması muxtar respublikada bu idman növünün inkişafı və kütləviliyinə nail olunmasının göstəricisidir.

Sonra Məmmədcəfər Əliyevin 2018-ci ildə görülən işlər və keçirilən yarışlar barədə hesabat çıxışı dinlənilib. Qeyd olunub ki, boksçularımız il ərzində 18 müxtəlif idman tədbirində iştirak ediblər. Federasiyanın idmançıları il ərzində Azərbaycan çempionatları və beynəlxalq yarışlardan, ümumilikdə, 16 medal qazanıblar ki, bunların da 5-i qızıl, 6-sı gümüş, 5-i isə bürüncdür.

Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov çıxışında vurğulayıb ki, muxtar respublikamızda idman və idmançılara hərtərəfli dövlət qayğısı nəticəsində gənc və yeniyetmələrin idmanın müxtəlif növlərinə marağı günü-gündən artmaqdadır. Nazirlik bu məqsədlə muxtar respublika ərazisində yaradılan bütün idman federasiyaları ilə birgə fəaliyyət göstərir və bu sahədə dövlət siyasətinin tənzimlənməsini həyata keçirir.

Qeyd edilib ki, adıçəkilən müşavirədə muxtar respublikamızda fəaliyyət göstərən idman federasiyalarına bir sıra tapşırıqlar verilib. Həmin tapşırıqlara əsasən Boks Federasiyasında da idmanın bu növünün inkişaf etdirilməsi, gənclərin idmana cəlbi, idman yarışlarının kütləviliyinin artırılması, federasiya tərəfindən istedadlı gənclərin məlumat bankının yaradılması və hər yarışdan sonra yenilənməsi təmin edilməlidir.

Bildirilib ki, idmanın ən qədim növlərindən biri olan boks idman növü ötən il muxtar respublikanın idman həyatında kütləviliyi və qazanılan uğurları ilə idman ictimaiyyətinin diqqət mərkəzində olub. Gənclər və İdman Nazirliyi muxtar respublikamızda 2002-ci ildə yaradılan Boks Federasiyası ilə birgə idmanın bu sahəsi üzrə kütləviliyin təmin edilməsi üçün çoxsaylı tədbirlər həyata keçirib. Hazırda muxtar respublikamızın şəhər və rayonlarını əhatə etməklə ötən il ərzində 400-dən artıq idmançı, 27 fərqli qrupda idmanın bu növü üzrə keçirilmiş hazırlıqlarda, təlim-məşq proseslərində iştirak ediblər.

Nazir çıxışının sonunda həyata keçirilən tədbirlərin nazirlik və Boks Federasiyasının birgə və məqsədyönlü fəaliyyətinin nəticəsi olduğunu qeyd edib, dövlət idman siyasəti çərçivəsində qarşıya qoyulan tələb və tapşırıqların layiqincə yerinə yetiriləcəyini, eyni zamanda boksun inkişafı istiqamətində daha böyük uğurlara imza atılacağına əminliyini bildirib.

Tədbirdə federasiyanın 2019-cu il üçün hazırlanan qərar layihəsi təsdiq olunub. Sonra Naxçıvan Muxtar Respublikası Boks Federasiyasının il ərzində fərqlənən məşqçi-müəllimləri və idmançıları mükafatlandırılıb.

Yığıncağa yekun vuran gənclər və idman naziri məşqçi-müəllimlər və idmançılar adından yaradılan şəraitə görə Ali Məclisin Sədrinə minnətdarlığını bildirib.

**Ceyhun MƏMMƏDOV**

## Yaradıcı gənclər yetişdirən mərkəz

*Məktəbdənkənar müəssisələrdə yaradılan müasir şərait nəticəsində təkcə bilikli yox, həm də hər hansı sənətə yiyələnmiş insanlar yetişdirilir. Belə məktəbdənkənar müəssisələrdən biri də Naxçıvan Muxtar Respublikası Texniki Yaradıcılıq Mərkəzidir. Bu günlərdə mərkəzin fəaliyyəti ilə yaxından tanış olmaq üçün adıçəkilən ünvana yollandıq.*



Mərkəzin direktoru Sevinc Mirzəyeva ilə söhbət zamanı öyrəndik ki, 1991-ci ildən fəaliyyət göstərən Naxçıvan Muxtar Respublikası Texniki Yaradıcılıq Mərkəzinin binası 2007-ci ildə əsaslı şəkildə təmir edilərək elə həmin il sentyabrın 17-də istifadəyə verilib. Mərkəz şəhər ümumtəhsil məktəbləri şagirdlərinin texniki dərnəklərə cəlbini yaxşılaşdırmaq, onların yaradıcılıqlarını daha da inkişaf etdirmək, asudə vaxtlarının səmərəli təşkilində mühüm rol oynayır.

Hazırda burada “Təsviri estetika”, “Gənc dizayner”, “Makrome”, “Memarlıq”, “Əyləncəli fizika”, “Texniki ekologiya”, “İbtidai texniki modelləşdirmə” də daxil olmaqla, ümumilikdə, 13 adda dərnək fəaliyyət göstərir. Adıçəkilən “Bacarıqlı əllər”, “Texniki rəsmxət”, “Bədii tikmə”, “Kağız əl işləri”, “İnformatika”, “Təyyarə-raket modelçiliyi” dərnəkləri yalnız mərkəzdə deyil, Naxçıvan şəhərindəki ümumtəhsil məktəblərində də fəaliyyət göstərir. On bir otaqdan ibarət olan mərkəzdə akt zalı, sərgi salonu, emalatxana, informatika, bədii tikmə, bacarıqlı əllər, texniki rəsmxət otaqları yaradılıb. Marağa, həvəsə, bacarığa görə dərnəklərə cəlb edilmiş 666 şagird yaşlarına görə növbə və qruplara ayrılıb və onlara nəzərdə tutulan proqramla məşğələlər keçirilir. Dərnəklərə 34 müəllim rəhbərlik edir.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində olan mərkəz nazirliyin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Rəssamlar Birliyinin təşkilatçılığı ilə keçirilən tədbirlərdə yaxından iştirak edir. Həmin tədbirlərdə fəallıq göstərən dərnək üzvlərinin əl işləri diplom, fəxri fərman və qiymətli hədiyyələrlə mükafatlandırılır. Burada şagirdlərə doğma diyarımızı, onun qədim abidələrini, görkəmli şəxsiyyətlərini yaxından tanıtmaq məqsədilə muzeylərə, tarixi abidələrə ekskursiyalar təşkil edilir, intellektual oyunlar, viktorinalar keçirilir, tərbiyəvi və maarifləndirici mövzularda söhbətlər aparılır.

Mərkəzin sərgi salonunda şagirdlərin əl işlərindən ibarət nümunələrlə də tanış olduq. Burada “Milli geyimlər”, “Tarixi abidələr”, “Şəhidlər”, “Uşaqlar bizim gələcəyimizdir”, “Təbiət mənzərələri”, “Müasir tikililər”, “Nağıl və cizgi film qəhrəmanları” mövzularında əl işləri, maketlər, tikmə, toxuma, boya və yanma üsulu ilə çəkilmiş rəsm əsərləri nümayiş olunur. Sərgidəki hər bir nümunə heyranedici idi. Bədii tikmə dərnəyinin üzvü Zərifə Məmmədovanın “Musiqi alətlərimiz”, Billur Əliyevanın “Buta”, Şahin Məhərrəmlinin “Yusif Küseyir oğlu türbəsi”, Fidan Əliyevanın “Tarixi abidələrimiz”, Reyhan Əliyevanın “Möminə xatın türbəsi” kimi fantastik, xəyali, yaradıcı düşüncə tərzi ilə işlənən əsərləri ilk baxışdan diqqəti cəlb edir.

Mərkəzin məşğələ otağında Texniki rəsmxət dərnəyinin üzvü, Naxçıvan şəhər 12 nömrəli tam orta məktəbin 5-ci sinif şagirdi Fidan Əliyeva ilə söhbətləşdik. O bildirdi ki, bu peşəyə uşaq yaşlarından marağı olduğu üçün ailəsi onu mərkəzə üzv yazdırıb. Dərnək rəhbəri Natiq Yusifovun öyrətdikləri Fidanın həvəsini daha da artırıb. O, dərnəkdə qələmdən, perodan və fırçadan istifadə etməklə şəklin çəkilməsi, kölgə və işığın verilməsi, şriftlə yazı qaydaları, rəsmin növləri haqda öyrənir. Digər bir həmsöhbətimiz “Bacarıqlı əllər” dərnəyinin üzvü Sara Yıldız isə parça, kağız, balıqqulağı, plastilin, müxtəlif təbii materiallardan istifadə etməklə oyuncaq və əşyalar hazırlayır. Yaratdığı əl işləri sərgilər vasitəsilə nümayiş olunur.

Onu da qeyd edək ki, Texniki rəsmxət dərnəyinin üzvləri Mübariz Cabbarov, Reyhan Əliyeva, Şəmsim Əliyeva, Bətulə Hüseynova, Esma Rzayeva, “Bacarıqlı əllər” dərnəyinin üzvləri Altun İbrahimov, Sara Yıldız, Aytən İbrahimovanın əl işləri Naxçıvan Televiziyasının “Bunlar maraqlıdır” verilişində də nümayiş etdirilib. Başqa bir sevindirici hal da odur ki, üzvlərin əl işləri “Gəncliyimiz – gələcəyimiz” və “Uşaqlar və günəş” kitablarında çap edilib.

Mərkəz bundan sonra da məktəblilərin yaradıcılıq potensialının üzə çıxarılması, inkişaf etdirilməsi, sağlam və yaradıcı mühitin təmin olunması, cəmiyyətə yararlı vətəndaşların yetişdirilməsi işinə öz töhfəsini verəcəkdir.

**Güntac ŞAHMƏMMƏDLİ**

# Nemətullah Naxçıvani: aydınlanmağa gedən yol

(Hekayə)

*“Məhəbbət əhlinə görə Haqq-Taalanın varlıq mərtəbələrinin hər birində özəl bir zühuru (görünüşü) vardır”.*

**Nemətullah Naxçıvani**

Bilmirəm bura haradır? Mən niyə gəlib çıxdım bu torpaqlara, hərarət də çox yüksəkdir. Dözə bilməmişəm heç vaxt belə çılğın istilərə. Mənim aydınlanmağıma bu torpaqlar vəsilə olacaqmış. Qupquru çöllər. Alovlu Günəş... Əməkçi qarını xatırladır bu torpaq, cadar-cadardı əlləri. Susuzluqdan dodaqlarım qupqurudur. Bircə bulaq yox. Səhradır, səhra!

“O torpaqlar ruhundakı yaralara şəfa olacaq, sən onu tapacaqsan!” Şeyxin bu sözlərini xatırladıqca lap əsəbləşirəm. Yad diyarlarda acsusuz öləcəyəm.

Aydınlığa gedən yoldamı durur əzəmətli Nəşəva?

– Salam, karvansaray axtarıram gecələmək üçün!

– Salam, bir az qabağa get, görəcəksən qarşında.

– Bu insanlar hara gedir belə?

– Deyəsən, gəlməsən buralara, günün bu vaxtı Baba Nemətullahın aydın fikirləri cəmləyə bilər ancaq hamını!

Gözdən uzaqlaşanadək arxalarınca baxdım. Aclıq və yorğunluq bədənimi əsir almışdı. Üz tutdum Naxçıvanın məşhur karvansaraylarından birinə. Karvansarayın sahibi ilə çox danışmamağa cəhd etdim. Onsuz da işlərim ərəb saçı kimi dolaşıq idi. Gözlədiyimdən daha boğucu idi bu torpaq.

– Sabah tezdən qalxıb geriyə qayıdacağam. Bura mənim düşüncələrimə tamam zidd bir yerdir. Ürəyimə yatan heç nə görmədim...

Səhəri gün günortaya qədər kor-peşman şəhəri dolaşdım.

Kölgə oyunudur həyat. Gəldiyim zaman gördüyüm Naxçıvandan (Nəşəvadan) fərqli bir torpaqla qarşılaşdım sanki. İnsan, həqiqətən də, görmək istəməlidir. İnsan görmək istəmədikcə heç nəyi görə bilmir. Atamın məni bura göndərməkdə məqsədi nədir, görəsən?

Aylar keçirdi. Baba Nemətullahın qapısına nə vaxt getsəm, adamla dolu olur. Mənə sıra gəlib çatanda gecə tamam olur. Və kor-peşman karvansaraya qayıdıram. Saç-saqqalım uzanıb. Dərvişanələşmiş ruhum, içimdə tanımadığım təlatüm...

Budur, məscidə gedənlər içərisində artıq mən də varam. Gözlədim ki, hər kəs çölə çıxanda Nemətullah Naxçıvaniyə yaxınlaşım. İkisaatlıq moizədən sonra məsciddən dağılışan camaat məni itələyib çölə saldı. Nə qədər çalışdımsa, təkrar içəri keçə bilmədim. Axırda müqəddəratımla barışıb, keçib oturdum bir daşın üzərində. Şeyx ətrafındakı insanlarla uzaqlaşmaqda idi. Bilirdim ki, ona nə fiziki, nə də mənəvi təmas edə bilərəm. Çünki fiziki təmas üçün insan izdihamını yarıb gedəcək gücüm yox idi, mənəvi təmas üçünsə, ruhi zənginliyim az idi. Yadıma bu torpaqlara qədəm qoyduğum və narazı qaldığım günlər düşdü. İndi isə buraya qəribə daxili bağ ilə bağlı idim. Bir gün Baba Nemətullah Naxçıvani ilə mütləq görüşəcəkdim. Bundan əmin idim...

Karvansaraya qayıdanda artıq gec idi. Qocanın paslı qapıya bənzər səsi ilə etdiyi narazılıqları dinləmədən otağıma çəkildim. Buranın ab-havası məni boğurdu. Solğun divarlar, yorğan-döşək və yerə qoyulmuş mizin üzərində qalaq-qalaq kitablar. Bunları atama yazdığım namədən sonra Nəşəvaya gələn tacirlə mənə göndərmişdilər. Kitablarım mənim var-dövlətim idi.

Səhər yuxudan qalxanda qəribə əhval içərisində idim. Aşağı düşdüm. Səssizlik qulağıma yad gəlirdi. Qoca! Qoca!.. Səsimə səs verən yox idi, həmişə ağzına qədər dolu karvansarayda indi mənə ancaq öz səsim cavab verirdi. Tələsik çölə çıxdım. Uzaqdan səslər gəlirdi. Ayaqlarımı marağımın ardınca sürüdüm. Qələbəliyi yarıb qabağa keçdim. Çox sevinirdim, elə bilirdim ki, Şeyx də burdadı. İnsanların arasında, burda, elə burdaca...

Ancaq onun yerinə bir-biri ilə dalaşan iki şəxsi ayıran insanlar gördüm.

– Yaxşı ki, getdi. Burda yeri yox idi.

– Sən bilmirsən, necə qiymətli incini itirdiyimizi.

– Sənə görə inci idi, bizə görə isə, sadəcə, başağrısı.

– Qocaldıqca lap ağlını qaçırırsan, o qədər narahatsansa, sən də get arxasınca. Necə də gərəkli imiş Nəşəvaya Baba Nemətullah!

Səslər getdikcə uzaqlaşırdı, sonra birdən hər yer qaranlıqlaşdı.

– Mən hardayam?

– Sakit ol, ay yazıq.

– Qoca! Baba Nemətullah haradadır?

– Ay bədbəxt, sən öz halına yan birinci, öz əhvalını soraqlaş.

Dəli kimi yatağımdan qalxdım. Qapıya tərəf qaçdım...

* * *

Ruminin vətəni, Şəmsin pənah yeri olan Konya, məni də qəbul et özünə. Şəhərin darvazasından içəri girdikdə qəribə bir halət hiss edirdim özümdə. Bu hiss məni həm həyəcanlandırır, həm də qorxudurdu. Ürəyim göyərçin ürəyi kimi çırpınırdı. Soyuq tər damcıları toplaşmışdı ovuclarımda. Harda idi görəsən, Baba Nemətullah? İki sirli şəhəri tərk edib üzümü tutmuşdum Konyaya. Ayağımı içəri qoyandan bəri ruhumda dərin təlatümlər yaranmışdı. Övliyaların məskəni. Kimsəsizlərin üz tutduğu torpaq idimi Konya? Salxım söyüdlərin baş-başa verib söhbətləşdiyi, iydə ağaclarının öz füsunkarlığıyla bəzədiyi bir məkan idi bura. Ağacların altına oturmaq üçün taxtadan düzəldilən bir neçə oturacaq düzülmüşdü. Ətrafa boylandım. Səssizlik idi. Uzaqdan sayrışan insanlardan başqa yaxınlarda əllə tutulası heç kim yox idi. Oturacaqlardan birində əyləşdim. Gözlərim arxın sakit və şəffaf suyuna ilişib qaldı. Neçə saat belə dayandığımı bilmirəm, amma günorta azanının səsi məni oyatdı. Naxçıvanda olarkən azan səsini çox dinləyirdim. Bu musiqidəki həzinlik mənə doğma torpaqlarımı – Suriyanı xatırladırdı. Hələbdən bura gəlmək, həqiqəti tapmaq gərəkli idi.

* * *

– Ancaq Şahı Nəqşibəndi həzrətlərinin tələbəsinin yetişdirdiyi Baba Nemətullahı tapmaq həqiqətə gedən yolda mənə kömək olacaq. Baba Nemətullah bizə müəlliminin kəlamlarını söylədi.

– Bu gün mən gələ bilmədim ora. Bilirəm ki, illərcə peşman olacağam. Ağşəhər çox uzaq. Hər gün getmək mümkün deyil. Nə buyurdu Nemətullah?

– İslamın dərkindəki fəzilətlərdən danışırdı böyük alim bizlərə. Müəllimi mürşidi Şahı Nəqşibəndi həzrətlərindən bəhs edərək buyururdu: “Dilini Allah-Taalanın adını zikr etməkdən başqa işlərlə məşğul olmaqdan və başqa şeylər danışmaqdan qoru. Nəfsini hesaba çək. Elmə yapış və ədəbi mühafizə et. Haqq və hüquqa riayət et. İbadətdən ayrılma. Gözəl əxlaqlı, mərhəmət sahibi və yumşaq ol. Allah-Taalanı unutduracaq hər şeydən uzaq dur və onlara qapılma.

Havada uçan birini gördüyünüz zaman dərhal o kimsənin fəzilətli, kəramət sahibi birisi olduğuna hökm verməyin. Xəta edə bilərsiniz. O kimsənin həqiqətən fəzilət və kəramət sahibi olduğunu anlamaq üçün, islamiyyətin əmrlərinə uymaqdakı həssaslığına, Peyğəmbər əfəndimizin əxlaqı ilə əxlaqlanması və sünnə-səniyyəyə uymasına, həqiqi İslam alimlərinə olan məhəbbət və bağlılığına baxın. Bunlar tam isə, o kimsə fəzilət və kəramət sahibidir. Bunlara uyğun gəlməkdə ən kiçik bir zəiflik olsa, o kimsə üçün fəzilət və kəramət sahibidir, – demək mümkün olmaz”.



– Bərəkallah, Nemətullah, bərəkallah... Ona görə bizlər onu çox sevirik.

Bu dialoqa bütün diqqətimi toplayıb qulaq asdım. Məni torpağa mismarlamışdılar sanki. Dilimə isə paslı qıfılı bənd etmişdilər elə bil. Dinib-danışa bilmirdim. Kök atacaqdı ruhum sanki torpaqda.

Təfsir elmindən savayı, bütün daxili və batini elmlərə bələd imiş Nemətullah!

Belə ustaddan dərs almaq fərz oldu. Yol məni Ağşəhərə aparır. Rüzgar! Duyğularımı və salamımı yetir Baba Nemətullaha. Rüzgar, söylə o alimə ki, qəbul etsin bu dərvişi… Daha nə dizlərimdə güc qalıb, nə də ümidim. Mən onun ziyası ilə aydınlanmağa layiqəmmi, bilmirəm. Amma onun elminin nuruna möhtacdır ruhum. Bunu dərk etmişəm.

Düşünürdüm: nədir həqiqət? Həqiqətə gedən yolda lazımdırmı insan adlı pillələr?

Niyə məni belə yorucu imtahana məcbur edib yaradan? İçimdəki mənə məğlub olur bütün məntiqli düşüncələr. Mən həqiqəti tapmaq uğruna çıxmışam onun ovuna. Həqiqətə gedən yolda, görəsən, niyə dayanıb Baba Nemətullah?

Vukufi zamanımı yoxsa? Gecikməli bir arzumu yoxsaməndəki? Elm istəyirəm, elm, sadəcə, elm. Onu onlardan ayıran elmə verdiyi dəyər deyilmi? Beynimdə bağıran səsə qulaq verirdim. Bu səs mənə deyirdi: “Vukufi qəlbim! Səfər dər-Vətən!!! Səfər dər-Vətən!!! Yoluna davam et, İbrahim, at qəlbindən zərərli düşüncələrini, Nigah-daşt!!!! Nigah-daşt!!!”.

Mən Ağşəhərə çatanda artıq qaş qaralırdı. Özümü birtəhər bir karvansaraya saldım. Səhər ətəyimi toplayıb oranı tərk etdim. Gedib Baba Nemətullahın yaşadığı yeri tapdım. Sadə görünüşlü dairəvi bir məkan idi bura. Qapının üzərindəki ulduzabənzər dəmiri taqqıldatdım. Qapı paslı bir qışqırtıyla açıldı. Ağ geyimli, çəlimsiz bir gənc qapıda dayanıb mənə baxırdı. Bir-birimizə dəqiqələrcə baxdıq. Ağzını açmırdı.

– Baba Nemətullahı görməliyəm.

– Şeyx sizi gözləyirdi.

– Yox, səhv salmısınız yəqin. Mən şəhərə dünən gəlmişəm. Şeyxiniz məni tanımır.

– İbrahim, Şeyx sizi gözləyir.

Əlim ayağıma dolaşdı. Dilimin sözlərini itirdim birdən. Nə deyəcəyimi bilmədən içəri keçdim, necə addım atacağımı belə, unutdum. Heykəl ədası ilə çəlimsiz gəncin arxasına düşdüm.

Otağa daxil olduqda Şeyx məni ayaq üstdə qarşıladı. Şeyxin qarşısında nə edəcəyimi, onu necə salamlayacağımı bilmədiyim üçün azca təzim edib onu salamladım.

– Xoş gördük, İbrahim.

– Salamlar, böyük Şeyx Baba Nemətullah, nəhayət ki, sizinlə tək qala bildim.

– Yanılırsan, İbrahim, insan oğlu heç bir məkanda, heç bir zamanda tək deyildir. Sadəcə, tək olduğunu düşünür.

– Böyük Şeyx, buraya gəlməkdə məqsədimi sizə şərh etməyimə icazə verin...

– Öncəliklə dikəl və əyləş, İbrahim.

– Buraya gəlmə məqsədin sənin beynində qəbul edib, özünü inandırdığın məqsəddən daha yüksəkdir. Mənə özünə təlqin edib inandırdıqların gərək deyil. Mən onlara vaqifəm. Sənin dərk etmədiyin məqsədə də həmçinin.

Şeyxin nə dediyini anlamırdım. Yaşlaşmışdı Baba Nemətullah. Görünür, nə dediyindən deyildi xəbərdar.

– İbrahim, insan tələffüz etdiyi sözlər üçün məsuliyyət daşıyır. Əgər ağlında qüsur yoxdursa, nə dediyinə əlbəttə hakimdir.

Şeyxin nə düşündüyümü anlaması məni sarsıtdı, həm də utandırdı. Gözlərim otağa sızan Günəş şüasının arxasınca süründü...

– İbrahim, öncə “Qurani-Kərim”dən başla... Unutma “Qurani-Kərim” ağlın icra etməli olduğu ayələrdən ibarətdir, bəsirət və oyanmaq üçün diqqətlə baxmaq lazım. Hüquqi-İlahiyyə nəfsi çirklərdən islah etmək, nəfsani şübhə və şeytani vəsvəsələrdən təmizləmək, ürəkləri və könüllərini təşviq etmək üçündür. İnsan bu ali mövqeyə çatmadığı müddətcə ondan mərifət və şühud iddiası dinlənilməz. Nə zaman insan bu mövqeyə çatar və bir istək olmadan bu mövqeni əldə edər, o zaman özü üçün Allahın ən böyük qapısı açılar.

* * *

Zaviyyədə qaldığım günlər ruhumun aydınlanmasına xidmət edirdi. Zaman keçdikcə səssizliyimə səssizlik əlavə olmuşdu. Baba Nemətullahın göstərdiyi istiqamətdə irəliləyirdim dostlarımla birlikdə. Aradan beş il keçmişdi. Bu illərdə ən yaxın sirdaşıma çevrilmişdi Mustafa. Baba Nemətullah mənə həyatımı geri qaytardı. Dünyaya heç bir insanın boşuna gəlmədiyini öyrətdi. Onunla birlikdə işığın xidmətçilərinə çevrildik. Həqiqət işığında yanıb, yenidən bədən tapdı ruhumuz.

– Mustafa, bu gün hava çox tutqundur. Ürəyim nəsə sıxıntılıdır.

– İbrahim, Baba Nemətullahın vəziyyəti yenə pisləşib. Ancaq ibadətindən qalmır böyük ustad. Sizlər üçün edəcəklərim qalıb hələ də, – deyir.

– Mən onu görməliyəm, Mustafa.

– O səni görmək istəmədiyi müddətcə bu mümkün deyil, bilirsən.

– Bilirəm, Mustafa...Səlim imkan vermir qapıya yaxınlaşım. Nə cücərdir ondakı bu nifaq toxumlarını, bilmirəm...

– Şeyxin sənə bağlılığı, rəğbəti cücərdir Səlimin qəlbindəki nifaq toxumlarını. Yuxuda belə, sənin ismini sayıqlayır. Niyə mən yox , niyə İbrahimi seçdin, Şeyx, – deyir...

– Anlamıram səni, Mustafa, niyə belə deyir ki? Mənə ondan artıq nə verilib ki?

– Şeyxin sənə məhəbbəti tükənməzdir. Bu isə Səlimin qəlbini qaraldıb. Xatırla Mövlana ilə Şəmsin hekayəsini, İbrahim… Bəzən nifaq bıçağı elə iti olur ki, mərhəməti asanca doğrayır. Bu səbəbdən diqqətli olmaq gərək.

– Nə olacaqsa-olsun, Mustafa, qorxum yox. Mən Şeyxi görməliyəm mütləq. Vaxt yoxdur. Az qalıb, lap az, hiss edə bilirəm bunu…

– Nəyi, İbrahim, qanım çəkildi… Düşündüyüməmi az qalıb, yoxsa...

– Bəli, Mustafa… Nemətullah Naxçıvani yaxında nurlu bir səyahətə çıxacaq… Bu səbəbdən onu ziyarət etməyim vacibdir.

Aydınlanmağa gedən yolda durmuş şanlı Nəşavanın övladı Baba Nemətullah. Onun ziyasının zərrələri ilə vücud buldu mənim. Fiziki məndən içəridə varlığı təsdiqləndi gerçək mənin.

Nəfəs ala bilmirəm belə zamanlarda. Min cür əziyyətə düçar olub ruhum. İndiki tək çarəsizliyi dadmamışam fəqət. Ax Səlim… Sən də bizimtək aydınlanma yolunda addımlayırdın, bu qədər ziya niyə qova bilmədi qəlbindəki zülməti?

Bu gün hava çox bozumtuldu. Gecənin göz yaşları süzülüb təbiətə… Nəmli kirpiklərini açıb yumduqca gecə ildırımlar çaxır zehnimdə… Düşün, İbrahim, düşün bu gecə bu iş həll olmalıdı…

– İbrahim.

– Kim var orda? Mənəm, Mustafa.

– Mustafa, nədir, ürəyimi niyə qırırsan, pis xəbərlə gəlibsənsə, gəldiyin kimi qayıt!

– İbrahim, Şeyx səni görmək istəyir, loğmanla mənə namə göndərib. Başqa qapı var. Gecə oradan gedəcəksən Şeyxin hüzuruna. Baba Nemətullah agah edəcək sənə niyə səni çağırdığının hikmətini...

* * *

O gecənin ağırlığını izah edə bilmərəm sizlərə. Şeyx elə həmin gecə qədəm qoydu nurlu yola. Mən də onun kimi torpağıma gedə bilmədim. Burada qalıb onun yolunu davam etdim. Şeyxin məndən son istəyi bu oldu. İndi də onun mübarək məzarı mənim evimdir. Hər zaman onun yanında olmaqdan qürur duyuram. Bu vaxtlarda Mustafa daim mənimlə oldu. Səlim isə Zaviyyəni tərk etdi. Məni şeyxləri kimi qəbul etdilər. Artıq vaxt yetişib, getməliyəm ustadın yanına… Qocalıq məni lap əldən salıb, görünür ki, yaxında mənə də qucaq açacaq aydın yol… Pıçıldardı hər zaman müdrik Şeyx: *“Ruh qəflət və unutqanlıq yuxusundan oyandıqda fitri-meyli gərəkincə əsl Vətənini və həqiqi məbədini düşünməyə başladı”*…

Şeyx haqlı idi, haqlı idi o …Aç mənə qollarını, şanlı Nəşavanın övladı, böyük Şeyx!

**Nərgiz İSMAYILOVA**
***filologiya üzrə fəlsəfə doktoru***


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 22